Tarix göstərir ki, dövlətlərin inkişafı üçün onilliklər, qərinələr lazım gəlir. Azərbaycanda isə 15 ilin statistikası respublikamızın bir neçə onilliyə bərabər inkişaf yolu keçdiyini göstərir. Bu inkişafın müəllifi isə bu dövrdə ölkəmizə layiqincə rəhbərlik edən, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunu uğurla davam etdirən Prezident İlham Əliyevdir.
Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizə bölüşdülər.

Liderlik rəmzi

İnam, etimad ünvanı

Fəttah HEYDƏROV, Milli Məclisin komissiya sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədri:

- Dövlət müstəqilliyinin ilk illərində yaşadığımız böyük problemlər indi yaddaşımızın acı xatirəsinə çevrilib. Həmin dövrün miskin, zəifləmiş, iqtisadiyyatı və mənəvi mühiti sarsılmış Azərbaycandan indi əsər-əlamət qalmayıb. Bugünün Azərbaycanı Cənubi Qafqazın və ümumən Avropanın əsas enerji və iqtisadi-siyasi güc mərkəzlərindən biri kimi çıxış edən, tam müstəqil siyasət yürüdən qüdrətli ölkədir. Bu Azərbaycanın qurucusu isə onu davamlı inkişaf yoluna çıxaran, gələcəyi üçün etibarlı zəmin hazırlayan Heydər Əliyev dühasıdır!

Qürur və fəxarətlə deyə biləcəyimiz bir danılmaz həqiqət də var. Ulu öndərin böyük şücaətlə fəlakətlərdən qoruduğu və davamlı inkişaf yoluna çıxardığı respublikamız son 15 ildə məhz İlham Əliyev fenomeninin fitri idarəçilik və liderlik keyfiyyətləri sayəsində özünün parlaq inkişaf mərhələsini yaşayır. Bəli, müasir Azərbaycan ötən illərdə inanılmaz nailyyətlərə imza atıb. Kənar təzyiqləri inamla dəf edib, müstəqil siyasət yürüdüb. Azərbaycan bu müddətdə qarşıya qoyduğu hədəflərə inamla yetişib.

Bir sözlə, Azərbaycanı çoxəsrlik dövlətçilik tarixinin ən möhtəşəm dövrünə çatdıran lider məhz İlham Əliyevdir! Düşünürəm ki, dövlət müstəqilliyinin 27-ci ildönümü tamam olmuş Azərbaycanın ən böyük uğuru da budur!

Ədəbiyaşar şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü "Güclü dövlət-müstəqil siyasət" tezisi məhz İlham Əliyevin prezidentliyi dövründə tam mahiyyəti ilə reallaşıb!

Ölkə rəhbəri İlham Əliyev ümummilli lider Heydər Əliyevin genetik davamçısı statusunun səfasını yox, həm də məhz cəfasını çəkdi. Belə bir dahi şəxsiyyətin övladı olmaq, əslində, həm də böyük məsuliyyət və özünənəzarət tələb edir. O, hələ ötən əsrin 80-ci illərinin sonlarına doğru Heydər Əliyev ailəsinin üzvü statusunun çətinlik və məhrumiyyətlərini taleyində yaşamalı olub. Məhz həmin dövrdə işindən uzaqlaşdırıldı, ədalətsiz təqiblərə, mənəvi sarsıntılara məruz qalıb. O, Azərbaycan xalqının ən ağır günlərində - 1990-cı ilin məlum qanlı yanvar hadisələrindən dərhal sonra ümummilli liderlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək əsl istiqlal hərəkatı başladanlardan biri olub. İlham Əliyev elə o vaxtdan - 1990-cı ildən bugünədək ön sırada Azərbaycanın mücadiləsini dayanmadan, yorulmadan, böyük vətənpərvərliklə, fədakarlıqla aparır!

O, hələ prezident seçilməmişdən xeyli əvvəl Azərbaycanın siyasət arenasında xalqımızın milli maraqlarını qorumaq əzmi və iradəsi sayəsində parladı. Bu məqamda onun "Əsrin müqaviləsi"nin imzalanmasındakı tarixi xidmətlərini xüsusi xatırlatmaq istərdim. O zaman ARDNŞ-in vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev Qərb şirkətlərini "Əsrin müqaviləsi"nin zəruriliyinə inandırmaq üçün 7 ay ərzində - fevraldan sentyabradək Bakıdan Hyustona, Moskvadan Londona qədər böyük coğrafiyada əzmkar fəaliyyət göstərdi və xalqımızın maraqlarının maksimum dərəcədə təmin olunmasına nail oldu. Neftimizin taleyinin müzakirə olunduğu masanın bir tərəfində dünyanı bölüşdürən əsas güclər, onlarla neft dövlətini özünə tabe etdirmiş transmilli korporasiyalar, qarşı tərəfində isə dünya siyasi səhnəsinə yeni çıxan, büdcəsi tamamilə boş olan, sıxıntılar içində yaşayan bir dövlət dayanırdı. İlham Əliyev fenomeninin diplomatik məharəti, qarşısındakını inandırmaq bacarığı sayəsində bu mübarizədə qalib Azərbaycan dövləti oldu. 33 yaşlı gənc azərbaycanlının qarşısında dayanan bu güclər onun böyük diplomatik məharəti nəticəsində Azərbaycanın tələbləri ilə razılaşmağa məcbur oldular.

Aradan illər keçib. Azərbaycan dövlətinin rəhbəri - Prezidenti statusu kimi ağır yükü çiyinlərində layiqincə daşıyan İlham Əliyev bu gün də ölkəmiz, xalqımız naminə mübariz ovqatdadır!

Bu gün İlham Əliyevin lider kimi ən böyük uğurlarından biri ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edə bilməsindədir. Ötən illərdə biz Azərbaycana ən müxtəlif təzyiqlərin, təhdidlərin şahidi olmuşuq. Müxtəlif məsələlərlə bağlı ölkə hakimiyyətinə əsassız hücumlar, təzyiqlər olub. Fəqət, Prezident məhz xalqın inamına, iradəsinə, dəstəyinə, ölkənin iqtisadi potensialına güvənərək bu təzyiqləri dəf edib. Xalqın mənafeyinə xələl gətirə biləcək heç bir anlaşmanı qəbul etməyib. Çünki möhtərəm Prezidentin arxasında qüdrətli və güclü dövlət, yumruq kimi birləşən xalq dayanıb. Məhz bu mənəvi birlik sayəsində ölkə rəhbəri antiazərbaycançı şəbəkənin hücumlarını əzmlə zərərsizləşdirib. Kiçik Azərbaycanın böyük maraqlarını təmin edib!

İlham Əliyevin əldə etdiyi böyük uğurların əsas səbəblərindən biri də onun qətiyyətli və prinsipial rəhbər olmasıdır. Prezident qısa müddətdə Azərbaycan dövlətçiliyini hər cür cinayətkar qəsddən qorumağa qadir siyasətçi olduğunu, milli maraqlar naminə cəsarətli qərarlar qəbul etmək bacarığını nümayiş etdirib. Respublikada ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş bütün cəhdlərin qarşısı xalqın dəstəyi ilə qətiyyətlə alınıb, cəmiyyətdə barış, həmrəylik ovqatı gücləndirilib.

Prezident ən mürəkkəb siyasi şəraitdə birləşdiricilik keyfiyyətləri sayəsində xalqı öz ətrafına, ulu öndər ideyalarının cazibəsinə toplaya bilib. Dövlət başçısının ötən illərdə yürütdüyü siyasətin real, əməli fəaliyyətə söykəndiyinə hər bir vətəndaş daxilən əmin oldu. Hər kəs inandı ki, Prezident səlahiyyətlərini Heydər Əliyev kimi dahi siyasətçidən sonra uğurla davam etdirmək, xalqın sevimli rəhbərinə çevrilmək üçün İlham Əliyevdə lazımi sərişdə, bacarıq, qabiliyyət, intellektual səviyyə, idarəçilik keyfiyyətləri var.

Prezidentin məqsədəuyğun siyasəti aprel döyüşləri zamanı Azərbaycan xalqına hərbi zəfər qazandırmağa müvəffəq oldu. Ən əsası, bu hərbi üstünlüyün siyasi nəticəsi 22 illik danışıqlar prosesində ölkəmizin mövqeyini möhkənləndirdi. Qüvvələr nisbətinin dəyişdiyi, qalibin Azərbaycan olması birmənalı sübut olundu. Bütün dünya gördü ki, Azərbaycan əsgəri qısa müddətdə Dağlıq Qarabağı və ətraf ərazilərimizi işğaldan azad edə bilər. Bu, məhz Ali Baş Komandanın hərbi strategiyasının nəticəsi idi!

Müstəqil Azərbaycan hamar, düzgün yolla - Heydər Əliyev yolu ilə inamla addımlayır. Hər birimiz tam əminik ki, İlham Əliyevin müdrik siyasəti nəticəsində bu yol əbədiyyətə qədər davam edəcək.

Prezidentin rəhbərliyi altında tariximizin yeni mərhələsinə qədəm qoyuruq. Bu mərhələdə də qarşıya qoyulan bütün məqsədlərin həyata keçəcəyinə əsla şübhə yoxdur.

Çünki İlham Əliyevə - böyük vətənpərvərimizə, liderimizə sarsılmaz inamımız, dəyişməz etimadımız var!

Azərbaycanı da güclü, qüdrətli edən məhz bu inam, etimaddır...

Azərbaycanı ucaldan rəhbər

Tahir SÜLEYMANOV, Milli Məclisin deputatı:

- Dövlətin və xalqın inkişafı, yüksəlişi, dünya birliyindəki yerinin müəyyən olunması ona rəhbərlik edən şəxslərdən əhəmiyyətli dərəcədə asılıdır. Tarix bunu hər bir güclü dövlətin təcrübəsində sübut edib. Müstəqil Azərbaycanın da 1993-cü ildən sonra yazılan tarixinə nəzər salsaq, bunu aydın görə bilərik. Məhz ulu öndər Heydər Əliyevin başlatdığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin lidirinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib.

15 ilin nailiyyətləri sübut edir ki, ulu öndərin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Bu dövr ərzində Azərbaycanın sürətli inkişafı, enerji sahəsi ilə yanaşı qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, əhalinin aztəminatlı hissəsinin, bütövlükdə isə hər bir vətəndaşın maddi rifah halının yuksəlməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürüdülməsi Prezident İlham Əliyevin vahid siyasi platformaya söykənən, çoxşaxəli və genişmiqyaslı strateji xəttinin prioritet istiqamətləri olmaqla qazanılan uğurların göstəricisidir.

Son 15 ildə Azərbaycanın bütün bölgələri tarazlı şəkildə inkişaf etmiş, şəhər və kəndlər, qəsəbələr intibah dövrünə qədəm qoymuşdur. Respublikamızın ərazisi başdan-başa tikinti, quruculuq meydanına çevrilmişdir. Ölkədə həyata keçirilən sosial infrastruktur layihələri də Azərbaycan insanının firavan həyat tərzinin təmini məqsədinə xidmət edir. Ölkənin iqtisadi uğurlarını hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Yaşayış binaları, evlər, məktəb və xəstəxanalar, sosial obyektlər tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, memarlıq binalarında yenidənqurma işləri aparılır. Son illərdə Azərbaycanın siması büsbütün, tanınmaz dərəcədə dəyişib. Bunu ölkəmizə gələn qonaqlar da səmimiyyətlə etiraf edirlər. Qazandığımız bütün bu uğurlar Heydər Əliyevin siyasətinin və ideyalarının davam etdirilməsinin və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirilməsinin nəticəsidir. Bu mənada Azərbaycanın son 15 ildə keçdiyi böyük inkişaf yolu göstərir ki, Heydər Əliyev siyasəti, ideyaları yaşayır, müsəqil dövlətimizin yüksəlişinə xidmət edir.

Beynəlxalq miqyasda hər bir ölkənin inkişaf səviyyəsini, nüfuzunu, dünyada qazandığı etimadı və digər bu kimi əsas xüsusiyyətlərini xarakterizə edən əsas cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Təbii ki, hər ölkə dünya birliyinin bir subyekti olaraq həm özünün milli maraqlarına cavab verən və həm də müstəqil siyasət həyata keçirmək istəyir. Bu mənada yuxarıda qeyd olunanlar təsdiq edir ki, Prezident İlham Əliyevin lider qətiyyəti ilə Azərbaycan tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yeridir. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Beləliklə, uğurla reallaşan bu siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır.

Xüsusilə qeyd etmək istərdim ki, bu yaxınlarda müstəqillik tarixi-mizin ən şanlı səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illiyi münasibəti ilə təşkil olunmuş təntənəli mərasimlərdə dünyanın 44 ölkəsinin parlament rəhbərliyinin, 9 beynəlxalq təşkilatın təmsilçilərinin iştirak etməsi dövlətimizin beynəlxalq nüfuzunun daha bir bariz göstəricisi idi.

Eyni zamanda dəfələrlə sübut olunub ki, Azərbaycan heç bir beynəlxalq dilemma qarşısında deyil, hansısa məsələdə tərəddüd etmir. Ölkəmizin sosial, siyasi, iqtisadi həyatına kiçicik bir məsələnin diktə edilməsi isə mümkün deyil. Bu da bir daha onu təsdiq edir ki, müstəqil siyasətin fəlsəfəsində müstəqil qərarların qəbul edilməsi dayanır. Bütövlükdə, son 15 il ərzində Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb, ölkəmizin beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Bu gün regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət edir.

Azərbaycanın son 15 ildə qazandığı möhtəşəm nailiyyətlər, sosial-iqtisadi yüksəlişi, beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi ölkəmizin onilliklərə bərabər inkişaf yolu keçdiyini düşünməyə əsas verir. Bu inkişaf təsdiq edir ki, müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

Onu da xüsusilə qeyd etmək istərdim ki, cənab İlham Əliyev ötən 15 ildə prezidentlik müddətlərində ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasını yeni dövrün tələbləri, modern yanaşma ilə uğurla davam etdirməklə ümummilli liderin siyasi kursunun alternativsizliyini birmənalı təsdiqlətmişdir. Xalqın bu il aprelin 11-dəki müdrik seçimi isə bir daha Heydər Əliyev siyasi kursunun Azərbaycanın yeganə nicat yeri olduğunu, milli inkişafda mühüm rol oynadığını növbəti dəfə sübut etdi. Ölkədə bütün sahələrdə gedən inkişaf proseslərinin davamlı olmasına öz seçimi ilə töhfə verən Azərbaycan xalqı bu seçkilərdə İlham Əliyevə dəstəyini bir daha nümayiş etdirdi. Bu seçim, eyni zamanda xalqımızın öz layiqli liderinə rəğbətini göstərdi. Bu mənada 2019-cu il və qarşıdakı növbəti illərdə də Azərbaycan dövləti və xalqının Prezident İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atacağı şübhəsizdir.

Qazanılan uğurlar, gedilən yol göstərir ki, hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağını vəd edən və bu 15 il ərzində sözlə əməlin vəhdət nümunəsini ortaya qoyan ölkə rəhbəri İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi cəhətdən çiçəklənməsinə sərf etməkdədir. Bu gün o, ulu öndər Heydər Əliyevin şah əsəri olan, müstəqilliyini etibarlı şəkildə qoruyub saxlayan, azad və firavan bir dövlətin rəhbəri kimi ölkə vətəndaşlarının rifahı və xoşbəxt gələcəyi, ləyaqətli həyat tərzinin bərqərar olması naminə göstərilən xidmətlərin müəllifi kimi tarixi missiyanın daşıyıcısıdır.

İnkişafın və güclü dövlətçiliyin təminatçısı

Nəsib MƏHƏMƏLİYEV, Milli Məclisin deputatı

-Azərbaycan müstəqil dövlət kimi gənc olsa da, qazandığımız uğurlar, keçdiyimiz inkişaf yolu onilliklərə, qərinələrə bərabərdir. 27 illik müstəqillik tariximizin heç də bütün mərhələlərinin firavan olmadığını nəzərə aldıqda isə uğurlarımızın miqyasının daha böyük olduğunu görərik. Bu mənada gənc respublikamız öz inkişafı ilə dünyada həm də nümunəyə çevrilib. Tarixdə heç bir dövlət belə qısa müddətdə dünya birliyinin ehtiram olunan üzvünə çevrilməyib.

Azərbaycanın inkişafını, yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanını əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o Azərbaycanda dövlətçiliyin sağlam təməllər əsasında davamının və inkişafının əsaslarını da formalaşdırdı. Bunun nəticəsidir ki, Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş dövrünü yaşayır, daha da güclənir, qüdrətlənir, nüfuzunu artırır. Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Beləliklə, Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla, sürətlə irəliləyir.

Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Reallıq da ondan ibarətdir ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 15 il ərzində Azərbaycan çox mühüm keyfiyyət dəyişiklikləri yaşayıb. İlk növbədə bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da artdı. İqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. 2003-cü ildə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Ancaq bu gün həmin rəqəm 45 milyard dollara yüksəlib. Azərbaycan iqtisadiyyatına 250 milyard dollar investisiya yatırılıb. Bunun böyük hissəsi xarici sərmayədir. Yəni Azərbaycanda yaradılan biznes və investisiya mühiti hər zaman xarici sərmayədarların diqqətini cəlb edib.

Son 15 ildə iqtisadiyyatın 3,2 dəfə artması isə dövlət başçısının söylədiyi kimi rekord göstəricidir. Bu, onu təsdiq edir ki, son 15 ildə iqtisadi cəhətdən Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün bunların sayəsində respublikanın bölgələrində inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 1 milyon 600 mindən çox yeni iş yeri açıldı.

Azərbaycanın yüksəlişini 15 ilin digər mühüm yenilikləri fonunda bunu aydın görmək mümkündür. Bu dövrdə ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib, "Ümid", "Abşeron" kimi perspektivli qaz yataqları kəşf olunub, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinə başlanılıb və başa çatdırılıb, ölkə əhəmiyyətli yol-nəqliyyat sistemi, infrastruktur müasirləşdirilib. "Cənub qaz dəhlizi" çəkilişi və bütövlükdə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızın Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin edib. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırıb.

Təsadüfi deyil ki, bu gün beynəlxalq ictimaiyyət arasında Azərbaycan deyəndə göz önünə yüksək inkişaf edən ölkə gəlir. Ona görə, bütün dövlətlər, siyasi və iqtisadi təşkilatlar, o cümlədən dünyada sülhü və bəşəri ideyaları tərənnüm edən, inkişafa dəstək verən beynəlxalq qurumlar ölkəmizlə əməkdaşlığa maraq göstərir. Son illərdə Azərbaycanın beynəlxalq tədbirlər mərkəzinə çevrilməsinin də əsas səbəblərindən biri ilk növbədə ölkəmizin sürətli inkişafıdır. Bu inkişafın nəticəsidir ki, beynəlxalq səviyyədə respublikamızın mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Azərbaycan dünya birliyinin hörmət olunan, seçilən üzvünə çevrilib.

2003-2018-ci illərin reallıqları həm də onu deməyə əsas verir ki, Prezident İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Fəxarət doğuran digər məqam isə Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti, onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Yüksək siyasi iradəsi, qətiyyəti, məqsədə doğru inamla irəliləməsi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olması cənab Prezidentə xalqın böyük rəğbətini qazandırıb. Beynəlxalq qurum və təşkilatlar da birmənalı şəkildə etiraf edirlər ki, İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanın inkişafı sürətlənib, beynəlxalq nüfuzuna görə dünyanın lider dövlətlərindən birinə çevrilib.

İnkişafın və yüksəlişin davamlı olması isə hər bir azərbaycanlının ümdə istəyidir. Bu ilin aprelində keçirilən prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi bu istəyin təsdiqi kimi tarixə düşdü. Prezident İlham Əliyevin fəaliyyəti göstərir ki, dövlətimizin başçısı Azərbaycanın daha da çiçəklənməsi naminə lazım olan bütün addımları atır. Biz bu yolda cənab Prezidentə uğurlar arzulayırıq və əminik ki, qarşıdakı dövrdə xalqımızı daha da möhtəşəm nailiyyətlər gözləyir.

Söhbəti yazdı:
Rəşad CƏFƏRLİ,
"Azərbaycan"